# ORTA MƏKTƏB KURSUNDA IX SİNİFDƏ KİMYADAN EKSPERİMENTAL MƏSƏLƏLƏRİ VƏ ONLARIN HƏLLİ ÜSULLARI

**M.H. Şahbazov, X.A. İbrahimova**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

*Məqalədə məqsəd orta məktəb kursunda şagirdlərin müəyyən peşəyə istiqamətləndirilməsində, təfəkkür qabiliyyətlərinin inkişafında, məktəblilərdə praktiki bacarıqların formalaşdırılmasında, fənlərarası əlaqənin müəyyənləşdirilməsində və realizə olunmasında mühüm rol oynayan vasitələrdən biri kimya istehsalatı və onunla əlaqədar istehsalat sahələrinə, o cümlədən kənd təsərrüfatına aid kimya tədrisi zamanı eksperimental məsələlərinin şagirdlər tərəfindən həll edilməsidir.*

Kimyanın tədrisi prosesində şagirdlərə məsələ və çalışmaların həll etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Kimya fənnin tədrisi şagirdlərə yalnız nəzəri faktların verilməsi ilə məhdudlaşmamalı eyni zamanda onlarda praktik qabiliyyətləri inkişaf etdirmək, kimyanın ətraf mühitlə ələqasini dərindən başa duşmələri üçün məsələ həllinə üstünlük verilir. Çünki kimya ilə əlaqədar olan istehsalat sahələri kifayət qədərdir və kimya sənayesi ilə yanaşı kənd təsərrüfatı məhsulları, metal, gübrə, boyaq və s. istehsalı bütünlüklə kimyəvi proseslərlə bağlıdır. Bunlara aid məsələ həllini yaxşı mənimsəyən şagird praktiki həyata atılanda çətinlik çəkmə, gələcəkdə işlədiyi sahənin proseslərini tez mənimsəyər və istehsalatı səmərələşdirmək üsulunu tapar bilər. Orta məktəb kimya kursunda fənnin hər bir mövzusuna aid həm sinifdə, həm də evdə həll edilən kimya məsələləri materialın dərin və şüurlu surətdə qavranılmasına kömək edir, məktəbdə öyrədilən nəzəri biliklərin həyatla, təcrübə ilə əlaqələndirilməsini təmin edir, şagirdlərdə əməli və texniki vərdişlər qazanmalarına səbəb olur.

Müəllim dərsdə məsələ həll etdirməklə şagirdlərin fəal iştirakını, dərketmə qabiliyyətlərini yüksəldir və onlarda tədqiqatçılıq həvəsi oyadır. Bir sözlə, kimya dərslərində məsələ həll etdirməyin çox böyük nəzəri, əməli və praktiki əhəmiyyəti vardır. Kimyadan məsələ həll etməyin üstün cəhətlərindən biri də, kimyəvi işarələr, formullar, reaksiya tənliklərinin bizə nə verdiyini, kimyəvi maddələr arasında qarşılıqlı əlaqələri açıb göstərilməsi, anlayışların möhkəmləndirilməsi, təkmilləşdirilməsi, şagirdlərdə tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsidir. Kimya məsələləri şagirdləri keçmiş materialı təkrar etməyə, dərindən öyrənməyə vadar edir, onlarda növbəti mövzunu dərk etmək üçün konkret təsəvvürlər bazası yaradır. Həmçinin şagirdlərdə mərkəzləşmiş diqqət, məqsədyönlü və cavabdehli təfəkkür, qarşıya qoyulan məsələyə nail olmaq keyfiyyətlərini tərbiyə edir və inkişaf etdirir.

Yuxarı siniflərdə (IX, X,XI) məsələ həllinə, xüsusən istehsalat xarakterli və eksperimental məsələlərə daha geniş yer verilir. Kimya istehsalatının hər bir sahəsində qarşıya bir çox problemlər çıxır ki, kimya müəllimi onların həll edilməsi üsulunu şagirdlərə öyrədir.

Bildiyimiz kimya məsələləri qrupuna məsələ-suallar, çalışma məsələləri, hesablama və eksperimental məsələlər daxil olub kimyadan nəzəri biliklərinin möhkəmləndirilməsində və istehsalat prosesində mühüm rol oynayır.

Yuxarı siniflərdə həm keçilmiş məsələ tipləri mürəkkəbləşdirilərək həll etdirilir, həm də şagirdlərin təhsildə müvəffəqiyyət qazana bilmələri üçün :

a) Nəzəri hesablamaya nisbətən eksperimentdə (və ya istehsalatda) alınmış maddənin çıxımını təyin etməyi;

b) Reaksiya üçün maddələrdən biri artıq götrüləndə alınan məhsullarda hər bir maddənin miqadrı nə qədər olacağını;

c) İlkin maddələrin aşqarı olanda reaksiya nəticəsində nə qədər maddə alınacağını təyin etməyi;

d) Qaz qanunlarına aid məsələləri həll etməyi, o cümlədən maddənin qaz halındakı sıxlığına əsasən onun mol kütəsini təyin etməyi, maddənin sıxlığı və ondakı elementlərin faizlə miqdarı məlum olduqda maddənin molekul formulunu tapmağı və əksinə, kimyəvi formula əsasən maddənin sıxlığını təyin etməyi, reaksiyada alınan qazların həcmlərinə (qram–molekul həcminə) aid məsələləri həll etməyi;

e) Metallurgiya sənayesinə aid məsələləri və nəhayət üzvi kimyaya aid məsələləri həll etməyi öyrənməlidirlər.

Müəllim məsələləri mürəkkəbləşdirməklə bərabər onun həllini sadələşdirməyi və tədricən müəyyən ümumi qaydaları şagirdlərə öyrətməlidir .

**Məsələ-suallar** - belə məsələlərdə başlıca olaraq, heç bir kimyəvi formulun və kimyəvi reaksiya tənliyinin yazılması tələb olunmayan, yalnız mühakimə yürütməklə, yəni məntiqin gücü ilə həll edilə bilən kimya məsələləri nəzərdə tutulur. Buna görə də bu tip məsələlər bəzən məntiq və ya mühakimə məsələləri də adlanır. Bu tip məsələlərə misal olaraq, Oksigen laboratorityada civə(II)oksidin, bertole duzunun (Kalium xloratın) və kalium-permanqanatın parçalanmasından, sənayedə isə maye havanın fraksiyalı disstiləsindən alırlar. Bunların hansı fiziki, hansı isə kimyəvi hadisədi?

Beləliklə, yalnız əqli mühakimə yürütməklə, başqa sözlə desək düşünülərək cavabı tapılan və çox vaxt nə üçün, nədən ötrü, niyə, nə cür suallarına cavab verilməsini tələb edən, kimyəvi formul və ya tənlik yazıb, onların əsasında xüsusi hesablama əməliy-yatının aparılması lazım gəlmədən həll oluna bilən məsələlərə, məsələ-suallar və ya məntiq (mühakimə) məsələləri deyilir.

**Hesablama məsələləri** - Kimya məsələlərinin böyük və başlıca qrupunu hesablama məsələləri təşkil edir. Hesablama məsələlərində məlum kəmiyyətlər

olur: Bu kəmiyyətlər ya məsələnin şərtində hazır verilir və ya istehsalatdan, təcrübədən, soraq kitablarından, cədvəl və sairədən axtarıb tapmaq lazım gəlir. Sonra da bu verilmiş və ya tapılmış kəmiyyətlərə əsasən məsələdə tələb olunan nəticə hesablanıb tapılır.

Hesablama məsələlərini, xarakterindən asılı olaraq bir neçə xüsusi qruplara ayırmaq mümkündür.

Bu qruplar sırasına:

a) Çalışma (təmrin) məsələləri
b) Elmi–ədqiqat xarakterli məsələlər
c) İstehsalat–texniki məsələlər daxildir

**Çalışma (təmrin) məsələləri** - bu tip məsələlərdə əsas məqsəd məktəbdə keçilmiş dərsi möhkəm-lətmək, kimyəvi birləşmələrin tərkiblərini şagirdlərin yaxşı öyrənmələrinə və yadlarında qalmalarına kömək etməkdir. Bu cür məsələlərin həll edilməsi üçün əksərən şagirdlərin çox dərin fikirləşmələri lazım gəlmir və bu məslələr konkret həyat və ya istehsalat prosesi ilə bağlı olmaya da bilər. Məsələn,

1. a) 36 q suda b) 1 kq dəmir(III)oksiddə ($Fe_2O_3$) , c) 4 q hidrogendə , ç) 126 q nitrat turşusunda ($HNO_3$) neçə qram - molekul vardır?
2. Şəkərin nə qədərində 7.2 q karbon vardır?

Bu məsələlər şagirdləri sırf çalışdırmaq, kimyəvi formulun mahiyyətini başa salmaq, qram–molekul məfhumunu dərin dərk etdirmək məqsədi güdür.

**Elmi–tədqiqat xarakterli məsələlər** - Kimya elmnini şagirdlərin dərin öyrənmələri, şüurlu surətdə mənimsəmələri kimya sahəsində onların tədqiqat işlərinə hazırlaşdırılması, şagirdlərə məktəbdə qazandıqları biliyi kimya istehsalatına tətbiq etmək vərdişlərinin aşılanması üçün çox böyük əhəmiyyəti olan məsələlərdir. Məsələn: Bertole duzunu $KClO_3$ ayırmaqla 0.5 qram–molekul oksigen alınmışdır. Neçə qram–molekul duz ayrılmışdır. Bu məsələnin istehsalat ilə bilavasitə əlaqəsi yoxdur. Lakin bunu həll edən şagird təcrübədə tapılan bir kəmiyyətə (0,5 qram – molekul oksigenə) əsasən məsələdə tələb olunan, tədqiq olunan maddənin miqdarını hesablamaq yolunu öyrənir.

Digər qrup məsələlər **eksperimental məsələlər** daxildir. Yuxarı siniflərdə kimyadan eksperimental məsələlərin həllinə geniş yer ayrılır. Kimya istehsalatının hər bir sahəsində qarşıya bir çox vacib məsələlər çıxır ki, onların həll edilməsi üsulunu şagirdlərə öyrətmək kimya müəlliminin əsas vəzifəsidir. Eksperimental məsələləri isə eyni zamanda onların praktik vərdiş və bacarığını da möhkəmlətməyə və inkişaf etdirməyə xidmət edir. Eksperimental məsələlərin özü də iki qrupa bölünür. Birinci qrupa sırf təcrübə ilə əlaqədar olan eksperimental məsələləri, ikinci qrupa isə həm təcrübə edilməsi, həm də hesablama aparılması lazım gələn məsələlər daxildir. İkinci qrupa daxil olan məsələlər eksperimental–hesablama məsələləri də adlanır. Bu cür məsələlərdə ya əvvəlcə təcrübə qoymaq,

sonra da riyazi hesablamalar aparmaq lazım gəlir və ya əksinə, əvvəlcə hesablama aparılır, sonra təcrübə qoyulur. Sırf təcrübə ilə əlaqədar olan eksperimental məsələləri, əsasən dərsdə keçilmiş materialın möhkəmləndirilməsinə və tətbiqinə xidmət edir. Eksperimental məsələlərin bir qrupunu yalnız laboratoriya şəraitində və yaxud nümayiş şəkilində həll etmək məsləhət görülür. Buna görə də eksperimental məsələləri adətən dərsdə həll olunur, evə isə ya hesablama məsələlərinin müxtəlif növləri, ya da məsələ-sual verilir. Sırf təcrübə ilə əlaqədar eksperimental məsələlərə misal göstərək. Sınaq şüşəsində kalium–hidroksid (KOH), sulfat turşusu ($H_2SO_4$) və kalium–xlorid (KCl) məhlulları verilmişdir. Hansı sınaq şüşəsində kalium–xlorid olduğunu müəyyən edin.

Bu məsələnin həllinin köməyi ilə şagirdlərin bilik səviyyəsini, həmçinin mənimsəmənin şüurluluğunu da müəyyənləşdirmək olar. Məsələnin həlli zamanı şagirdlər onun şərtini diqqətlə analiz (təhlil) edir və başa düşürlər ki, bütün verilən maddəni təyin etməyə ehtiyac yoxdur. Yalnız birini tapmaq kifayətdir. Bunun üçün həmin maddəni başqalarından fərqləndirən əsas əlaməti lakmus indikatoruna təsirini bilmək lazımdır.

Eksperimental məsələlərə şagirdlərdən həlli yalnız fikri əməliyyatlar deyil, həmçinin kimyanın qanun, nəzəriyyə və metodları əsas fəaliyyət tələb edən problemli vəziyyət modeli kimi baxılır. Bu tip məsələlərin həlli biliklərin genişləndirilməsi, möhkəmləndirilməsi, kimya təfəkkürünün inkişafı istiqamətinə yönəldilir. Eksperimental məsələ həllinin əsas funksiyası sərbəst işlərin kompleks bacarıqların formalaşdırılması, diqqətin mərkəzləşməsi və təkmilləşdirilməsi ilə nəticələnir. Eksperimental məsələ həllinə hazırlıq mərhələsində müəllim tapşırığın dəqiq və qısa olmasını, həllinin isə təhlükəsiz və tam olmasını nəzərə almalıdır. IX sinfin kimya kursu, şagirdlər qısmən VII-VIII siniflərdə öyrəndikləri materialın təkrarı olan "Atom-molekul" nəzəriyyəsinə görə "kimyanın əsas anlayışları və qanunları" mövzusu ilə bağlıdır. Avaqadro qanunu, qram–molekul həcmi, qazların nisbi sıxlığı və s. əlavə edilmişdir. Bundan sonra sıra ilə kimyəvi rabitə, elektrolitik dissosiasiya, metallar, dövri sistemin I–III qrupun əsas yarımqrup elementləri, əlavə yarımqrup metalları (Cu, Zn, Cr, Fe), qeyri-metallar: halogenlər, oksigen, kükürd, azot və fosfor keçilir.

Müəllimin işinin yüngülləşdirilməsi məqsədilə kimyadan eksperimental məsələlərin də dərs mövzuları sırası ilə düzülməsi münasib görülür. Hər mövzudan bir neçə nisbətən çətin eyni zamanda həmin qrup üçün tipik və xarakterik olan məsələ həllinə xüsusən də eksperimental məsələlərin həllinə bu siniflərdə geniş yer verilməlidir.

Məsələni eksperimental (praktiki) həll etdikdə isə şagirdlərdən bir sıra əlavə iş görmək: düzgün təcrübə qoymaq, alınmış maddənin harada (məhlulda və ya çöküntüdə) olduğunu təyin etmək, onu sürmək, kristallaşdırmaq və s. vasitəsilə ayırmaq və çəkmək kimi bacarıqlarda tələb olunur. Şagird məsələni yazılı surətdə

həll etməklə bərabər onu təcrübə ilə də sübut etməli və düzgün izahat verməlidir. Belə olduqda şagird məsələni həm nəzəri, həm də praktiki olaraq həll etmiş və deməli, kimya dərslərində qazandığı biliyi praktikaya tətbiq etməyi bacarmış olur. Bununla müəllim şagirdin biliyinin nə dərəcədə dərin və şüurlu olduğunu təyin edər və şagird təxəyyülünün inkişafı haqqında mühakimə yürüdə bilər.

Beləliklə, məsələlərin eksperimental üsul ilə həlli şagird biliyinin nə dərəcədə şüurlu, konkret və sistematik olduğunu təyin etmək üçün mühüm vasitədir. Buna görə də eksperimental məsələlər adətən dərsdə həll olunur, evə isə ya hesablama məsələlərinin müxtəlif növləri, ya da məsələ-sual verilir. Sırf təcrübə ilə əlaqədar eksperiment məsələlərə nümunə göstərək.

Məsələn, çəki ilə müəyyən miqdarda benzol götürüb, nitrollaşdırma reaksiya vasitəsilə ondan nitrobenzol alınır. Alınmış nitrobenzolu çəkin və nəzəri hesablamaya görə alına biləcək nitrobenzola nisbətən, onun təcrübədək çıxımı neçə faiz olduğunu hesablayın.

Aydındır ki, bu məsələni həll etmək üçün şagird əvvəlcə benzol çəkib götürməli, ondan nitrobenzol alıb, bu məhsulu da çəkməli, sonra da reaksiyanın tənliyini yazaraq nə qədər benzoldan nəzəri olaraq nə qədər nitrobenzol alınacağını hesablamalı və nəhayət, istehsal etdiyi nitrobenzolun nəzəri çıxıma nisbətən faizini tapmalıdır.

Deməli, eksperiment məsələ elə məsələyə deyilir ki, onu həll etmək üçün, onda qoyulan suallara cavab verə bilmək üçün şagirddən yalnız nəzəri bilikdən düzgün istfadə etmək bacarığı deyil, eyni zamanda müvafiq kimya təcrübələri qoya bilmək bacarığı da tələb olunur. Məktəbin həyatla əlaqəsini möhkəmlətmək işində kimya məsələlərini istehsalat xarakterli etməklə, yəni məsələdə verilən rəqəmləri istehsalat prosesinə yaxınlaşdırmaqla bərabər, onun həllində eksperimental üsuldan istifadə edilməlidir. Belə ki, şagird məsələni yazılı surətdə həll etməklə bərabər, onu təcrübə ilə də sübut etməli və düzgün izah etməlidir. Belə olduqda şagird məsələni həm nəzəri, həm də praktiki olaraq həll etmiş və deməli kimya dərslərində qazandığı biliyi praktikaya tətbiq etməyi bacarmış olur. Eksperimental məsələlərin bu növlərini sadəcə nəzərdən keçirdikdə aydın olur ki, elmdə, texnikada və ümumiyyətlə istehsalatda tələb olunan bilik və bacarıq şagirdlərə, məhz eksperimental məsələlərin, eksperimental üsul ilə həllinə məktəblərimizdə ən geniş yer verilməlidir.

Kimya müəllimi eksperimental məsələləri şagirdlərin biliyinə müvafiq seçməli, məsələ həll etdirməyin ümumi şərtlərini və üsulunu ətraflı öyrətməlidir.

**“Halogenlər” mövzusuna aid eksperimental məsələlər.**

Məsələ: Təcrübə ilə sübut edin ki, a) kalsium – xloridin tərkibində xlor vardır, b) Mis(II)xloridin tərkibində mis və xlor vardır, c)magnezium bromidin tərkibində brom vardır.

Məsələ: a) $KJ \rightarrow KCl \rightarrow AgCl$, b) $KJ \rightarrow KBr \rightarrow AgBr$ sxemləri üzrə reaksiyalar

apararaq tənliklərini yazın. Alınan məhsulların rənglərini müqayisə edin. çəki ilə müəyyən miqdarda kalium–yodiddən bu reaksiyaların hansında çəki ilə daha çox son məhsul alınacağını hesablamadan deyin və səbəbini izah edin.

**"Oksigen və kükürd" mövzusuna aid eksperimental məsələlər.**

Məsələ: $KClO_3$, $KMnO_4$, HgO tərkibində oksigen olduğunu sübut edin.

Məsələ: Üç sınaq şüşəsində ağ duz vardır. Bunlardan hansının NaCl, hansının

$Na_2SO_4$ və hansının $N_2S$ olduğunu təyin edin.

Məsələ: İçərisində KCl ilə $MnO_2$ olan sınaq şüşəsinə qatı $H_2SO_4$ töküb ağzına

isladılmış yod–nişastalı kağız tutun . Nə müşahidə olunur?

**"Azot və fosfor" mövzusuna aid eksperimental məsələlər.**

Məsələ: Üç sınaq şüşəsində verilmiş məhlullardan biri $NH_4Cl$, ikincisi $(NH_4)_2SO_4$

və üçüncüsü $(NH_4)_2CO_3$. Bunları təyin edin.

Məsələ: Fosfordan fosfat turşusu alın.

Məsələ: Dörd sınaq şüşəsində sizə $(NH_4)_2SO_4$, KC, $NaNO_3$ və $Ca(H_2PO_4)_2$ verilmişdir.Bunları təyin edin.

**"Metallar" mövzusuna aid eksperimental məsələlər.**

Məsələ: Üç sınaq şüşəsindən birində $AgNO_3$, o birində göydaş, üçüncüsündə $CuCO_2$ məhlulları və dörd metal: sink, dəmir, Cu və Al verilmişdir. Bu metallar vasitəsilə hansı məhluldan metalı çökdürmək mümkün olduğunu düşünün və sübut edin.

Məsələ: $Al(OH)_3$ istehsal edin və onun amfoterliyini sübut edin. "Təkrar" zamanı müəllim şagirdlərə aşağıdakı eksperimental məsələni həll etməyi tapşırır.

Məsələ: Dörd sınaq şüşəsində sizə bu gübrələr verilmişdir: $(NH_4)_2SO_4$, KCl, $NaNO_3$ və $Ca(H_2PO_4)_2$ . Bunları təyin etməli.

Həlli: Şagirdləri gübrələri xarici əlamətlərinə görə təyin etməyi də öyrətmək lazımdır. Onlar bilməlidirlər ki, kalium duzları çox vaxt qatışıqları vasitəsi ilə bir qədər çəhrayı rəng alırlar.Superfosfat çox vaxt bozumtul olur, natrium şorası hiqroskopik olur və i.a.

a) Bunları bildikdə şagirdlər əvvəlcə rənginə görə kalium duzlarını yoxlayırlar və çox vaxt səhv etmirlər. Belə ki, əvvəlcə gübrədə kalium elementi olduğunu alovu boyaması ilə təyin edirlər. Alova göy şüşəli eynəklə baxmaq lazımdır.Alovun bənövşəyi rəng alması gübrənin kalium duzu olduğunu göstərir. Kalium gübrələri xlorid və ya sulfat şəklində olduğu üçün şagirdlər kaliumu təyin etdikən sonra gübrədə xlor ionunu ($AgNO_3$ ilə) və sulfat ionunu ($BaCl_2$ ilə) axtarırlar.

Məsələdə qəti olaraq KCl verildiyi üçün yalnız kalium ionunu təyin etməklə kifayətlənmək olar. Bunun üçün qara karandaşı uzun çərtib (qrafitini çox çıxarıb), onu əvvəlcə xlorid turşusu məhluluna batırıb, sonra da duza toxundururlar. Duz kristalcıqları qrafitə yapışır. Onu bu halda alovun işıqsız hissəsinə tutub alova göy şüşədən baxmaq lazımdır.

b) Boz rəngli gübrənin superfosfat olduğunu güman edərək, əvvəlcə onun suda həll olmasını yoxlayıb pis həll olduğuna qənaət hasil edirlər. Sonra bu duzdan bir az oda atıb və "yanan rezin" iyi verməsi ilə gübrənin həqiqətən fosfor gübrəsi olduğunu müəyyən edirlər. Onda Ca elementi olduğunu da alovu kərpici rəngə boyaması ilə təyin etmək olar.

c) Qalan iki duzdan birinin $(NH_4)_2SO_4$ olduğunu $BaCl_2$ ilə təyin edirlər.

ç) Sonuncu duzun $NaNO_3$ olacağını məsələnin şərtindən bilmək olar. Lakin yenə də bunu sübut etmək üçün əvvəlcə alovu sarı rəngə boyamasına əsasən onda natrium elementi olduğunu, sonra da bir az duzu oda atıb çırtıltı ilə yanmasına, od üzərində heç bir iz buraxılmamasına və ya azca ag "gül" əmələ gətirməsinə əsasən $NO_3^-$ ionu təyin edilir.

## İstifadə edilmiş ədəbiyyat:

1. Abbasov M.M., Əliyev A.H. Kimyanın tədrisində müasir təlim texnologiyaları. Bakı: Kimya məktəbdə, №1, 2009.

2. Чернобельская Г.М. Основы методики обучения химии. Москва: Просвещение, 1987, 255 стр.

3. Кузнецова Н.Е. и другие. Методика преподавания химии. Москва: Просвещение, 1984, 415 стр.

4. Əliyev R.Y., Əzizov A.T. Kimyanın tədrisi metodikası. Bakı: ADPU. 2006, 293 s.

5. Кузьменко Н.Е., Еремин В.В. Химия. 2400 задач для школьников и поступающих в вузы. М.: Дрофа, 1999.

*М.Г.Шахбазов, Х.А.Ибрагимова*

**Экспериментальные задачи IX класса по химии и методы их решения в курсе средней школы**

**РЕЗЮМЕ**

В статье охарактеризована ориентировка учеников курса средней школы на определенную профессию, развитие навыков мышления, формирование практических умений учеников, определение междисциплинарных отношений и реализация одной из важный открытий в химической отрасили и смежных с ней отраслях, а также решение учениками химический экспериментальных сельскохозяйственных задач.

*M.H.Shahbazov, X.A.Ibrahimova*

**Experimental issues on the chemistry and methods of their solving in the course of high school in the IX grade**

**SUMMARY**

The aim of the article is to solve by the pupils of experimental issues in agricultural chemistry education, one of the instruments that plays an important role in the identification and implementation of interdisciplinary relationships is the chemical industry and related production areas, formation of practical skills of schoolchildren in development of thinking skills, in vocational guidance of pupils at high school.

**Açar sözlər:** eksperiment, praktik iş, frontal üsul, eksperimental məsələ, istehsalat, kontrol iş.

**Ключевые слова:** эксперимент, практическая работа, фронтальный метод, экспериментальная задача, производство, контрольная работа.

**Key words:** experiment, practical work, frontal method, experimental issue, production, control of work.